Ədalət.-2019.-6 mart.-S.6.

# QATİL HƏMİŞƏ CİNAYƏT YERİNƏ QAYIDIR...



*Rafiq HACIYEV,*
*yazıçı-publisist*

> *"Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır".*
>
> ***Heydər ƏLİYEV***

### HADİSƏ YERİNDƏ

...Dərhal hadisənin baş verdiyi evə gəlmiş prokurorluq və əməliyyat işçiləri otağa girəndə qarşılaşdıqları müdhiş mənzərədən sarsıldılar: yerdə üç insan cəsədi var idi.

Döşəmədə ikiqat qalmış qadının qan sifətini örtmüş, paltarını qaraltmışdı. Qarnına sıxdığı əllərinin arxasından axan qara qan damcılayaraq palazın üstündə göl əmələ gətirmişdi. Meyitə baxan kimi düşünmək olardı ki, mərhum asanlıqla can vermək istəməyib. O, qatilə və ya qatillərə müqavimət göstərib. Hətta cinayət törədilərkən onu sinəsindən bıçaq zərbələri ilə vurub ölümcül yaraladıqdan sonra belə əlbəyaxa mübarizəyə girişib, qatilə üstün gəlməyə səy göstərib. Heç şübhəsiz ki, qadın çox qan itirdikdən sonra zəifləyib və cinayəti törədən naməlum şəxs sonuncu zərbə ilə onun nəfəsini kəsib. Döşəmədəki qan gölündə bu açıq-aydın görünürdü.

Ondan bir qədər aralı üzüqoylu yerə yıxılmış qocanın üz-gözünə isə möhkəm əl gəzdirmişdilər. Başını vurub partlatmışdılar-döşəmə beyin məhlulu ilə bulaşıq idi. Sifətində qan laxtalanmışdı: hansı isə küt alətin açdığı dərin şırımlar gicgahından başlamış çənəsinədək uzanmışdı.

Qız uşağının meyitinə baxmaq mümkün deyildi-buna ürək lazım idi. Daş ürək...

İstintaqçılar və əməliyyat işçiləri yaxşı bilirlər ki, adətən belə cinayət törədildikdə əvvəlcə ölənlərin şəxsiyyətini müəyyən edirlər, sonra isə qatil və ya qatilləri axtarırlar.

Öldürülənlərin şəxsiyyəti çox tez müəyyənləşdirildi: evin sahibi, 76 yaşlı Gülbala Məmmədov, onun qızı, 42 yaşlı Gülgəz Məmmədova və nəvəsi, 10 yaşlı Sevinc Məmmədova.

İndi qalırdı qatil və ya qatillər...

Hadisə yeri diqqətlə müayinə edilib protokol tərtib olundu. Meyitlərin və otağın şəkilləri, o cümlədən evin, həyətin, küçənin, qonşuluqdakı evlərin planı çəkildi. Meyitlərin ətrafında şübhə doğuran bütün əşyalar müəyyən edilib ekspertiza rəyi üçün götürüldü. Sahə dönə-dönə, özü də qarış-qarış yoxlanıldı, necə deyərlər hər yer axtarıldı. Mərhumların doğmalarından, qohumlarından və qonşularından ilkin ifadələr alındı. Bunlarla kifayətlənmək olmazdı.

Əməliyyat işçiləri kənara çəkildilər. İndi söz məhkəmə-tibb ekspertinin idi. Cinayətlərin əksəriyyətinin üstünün açılmasında onun rəyindən, qəti hökmündən çox şey asılıdır.

Daha bir müddət keçdi və məhkəmə-tibb eksperti meyitlərin xarici müayinəsinə dair öz ilkin rəyi ilə prokuroru və əməliyyat işçilərini tanış etdi. Şübhəsiz ki, onun yazdığı istiqamətverici məlumatları sətirbəsətir bura köçürməyə ehtiyac yoxdur. Rəyin qısa xülasəsini isə aşağıdakı kimi ifadə etmək olar:

"Gülbala kişi də, Gülgəz və Sevinc də iti və küt alətlərlə öldürülmüşlər. Gülbalanın burun kökü nahiyəsindəki, ənsəsinin sağ tərəfindəki yaralar, həmçinin kəllə tağı sümüklərinin qəlpəli sınıqları, başının yumşaq toxumaları və beyninin yumşaq qişası arasındakı qansızmalar küt alətin təsirindən əmələ gəlmişdir.

(əvvəli ötən sayımızda)

Gülgəzin sol gicgah və burun kökü nahiyəsində, sağ qulaq sırğalığında, üst dodağının və alt çənəsinin sol tərəfində, boynunun ön səthinin yuxarı hissəsində, sol çiyin nahiyəsində, döş qəfəsinin ön səthinin ortada üç, döş qəfəsinin sol yan səthində altı, sağ bazunun yan səthində bir və döş qəfəsinin arxasında bir yara, ümumiyyətlə on bir bıçaq yarası aydın görünür.

Sevincin alın və burun kökü nahiyəsində, sol qulağında, sifətinin sağ tərəfində sıyrıqlar, sağ gözünün alt və üst qapaqları nahiyəsində qançırlı şiş, döş qəfəsinin arxa səthində isə küt alətin təsirindən yaranmış beş ədəd zolaqvarı yanıq izləri, baş beynin yumşaq qişası altında və eləcə də toxumalar arasında qansızmalar, kəllə tağı sümüklərinin sınıqları müəyyən edilmişdir.

Qətl təxminən iki gün əvvəl baş vermişdir. Hadisə yerində qatilin və ya qatillərin izi qalmamışdır".

Göründüyü kimi, məhkəmə-tibb ekspertinin ilkin rəyi meyitlərin xarici müayinəsinə əsaslanmışdı və bu hadisəni olduğu təki təsəvvür etməyə kifayət qədər şərait yaradırdı. Lakin, cinayəti törətmiş naməlum şəxsin və ya şəxslərin dərhal izinə düşmək, qatilləri tapmaq üçün hələlik elə bir əsas vermirdi.

Yeri gəlmişkən prossesual hərəkətlərin ardıcıllıq qaydasını pozub deyim ki, deyim ki, ertəsi gün-fevralın 13-də məhkəmə-tibb eksperti 3, 4 və 5 nömrəli rəyləri ilə özünün ilkin məlumatını təsdiqlədi.

Heç şübhə etmirəm ki, dəfələrlə belə hala diqqət yetirmişsiniz - yalnız ucuz detektiv romanlarda və povestlərdə əməliyyat işçiləri, prokurorluq əməkdaşları ekspertin rəyini oxuyan kimi qatil və ya qatillərin kim olduqlarını o saat müəyyənləşdirirlər. Həyatda isə tamamilə başqa cür olur. Hadisə baş verdikdən sonra istintaq-əməliyyat qrupu əksər hallarda axtarışa nədən, kimdən, haradan başlamaq barədə planlar tuturlar, müxtəlif yollarla gedirlər.

Bu yollarda isə yalnız təcrübəli adamlar, tükü tükdən seçməyi bacaran, öz peşəsini ürəkdən sevən, ən başlıcası isə insanlara bələd olan, onların xarakterlərini dərindən bilən istintaq və əməliyyat işçiləri qarşıya qoyulmuş məqsdin öhdəsindən gələ bilərdilər. Bir sözlə, operativ istintaq-əməliyyat qrupu yaradılmalı idi.

Elə həmin gün-fevralın 12-də fakt üzrə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 94-cü (ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə) maddəsinin 4-cü və 6-cı bəndləri ilə cinayət işi başlandı və istintaq-əməliyyat qrupu yaradıldı. Qrupa yuxarıda sadaladığım keyfiyyətləri özündə cəmləşdirən təcrübəli müstəntiq və əməliyyatçılar cəlb olundular. Cinayət işinin istintaqının aparılması prokurorluğun müstəntiqi, I dərəcəli hüquqşünas İlqar Hacızadəyə həvalə edildi.

İlk operativ müşavirə zamanı xeyli fərziyyələr irəli sürüldü. Onların hamısını bir-bir yoxlamaq tələb olunurdu.

Əlbəttə, mən bütün fərziyyələrin doğru çıxıb-çıxmayacağını müəyyən etmək üçün görülən işlərdən təfərrüatı ilə danışmayacağam. Əslində heç danışmaq da mümkün deyil. Lakin o biri fəsillərdə istintaq qrupunun ağır qətllə bağlı apardığı bəzi işlərdən söhbət açacağam.

### QANLI GECƏ...

Yuxarıda demişdim ki, hadisələri xronoloji qaydanı qəsdən pozaraq təsvir edəcəyəm. Lakin görürəm ki, bu mümkün olmur. Ağır qətldən söz düşdüyündən üç nəfərin öldürüldüyü o sarsıntılı gecənin dəhşətli mənzərəsi cinayət işinin istintaq materiallarını oxuyarkən bir daha gözlərimin qarşısından keçir. Danışmaya bilmirəm. Ürəyim qəzəbdən döyünsə də, əllərim hirsdən əssə də.

Deyirlər ki, kamilliyin, rəhmdilliyin sonu, intəhası yoxdur. Razıyam. Amma sən demə, rəzalətin, qəddarlığın, vəhşiliyin, amansızlığın da həddi-hüdudu olmazmış.

...Gecədən təzəcə keçmişdi. Amansız qış küləyi yuxulu şəhəri dolaşırdı. Geniş çöllərdən, zülmətə qərq olmuş üfüqün arxasından əsən külək həyətlərə hücum edir, evlərin damlarının



üzərində vur-çatlasın qoparırdı. Hava təlatümə gəlir, qaynayır, guruldayır, qulaqbatırıcı səslərlə dolurdu. Küçələrin damarı çoxdan boşalmışdı. Rayon mərkəzinə yiyələnmiş arxalı zülmət, qatı qaranlıq aləmi elə çulğalamışdı ki, istər-istəməz adamı vahimə basırdı.

Quldur sərvaxtlığı və səssiz addımlarla qaraladığı evə doğru yavaş-yavaş irəliləyən naməlum şəxs də bütün cinayətkarlar kimi qorxub ətrafı dinlədi-məhəllə sanki ölüm yuxusuna getmişdi. Yalnız onun üz tutduğu evin ikinci mərtəbəsindəki pəncərədən zəif işıq gəlirdi.

Həyət qaranlıq idi. Külək vıyıldayır, haradasa damda qopmuş dəmir təbəqəsi dınqıldayır, yarı qurumuş ağac cırıldayırdı. Səma büsbütün zülmət pərdəyə bürünmüşdü. Nə ay görünürdü, nə də ulduzlar, heç işıldaquş da gözə dəymirdi. Təkcə hindən toyuq-cücə səsi gəlirdi. Səssizcə həyətdəki səki ilə yeriməyə başladı.

Naməlum şəxsin üzü çox bəsit, göz qapaqları, yanağı və çənəsi şişkin idi. Gözləri yağmurlu hava kimi tutqunlaşmışdı. Addımlarını atdıqca hiss edirdi ki, onun yuxulu gözləri get-gedə qırğı gözlərinə bənzəyir, yırtıcılaşır. Bu gözlərdə səssizcə özünü bürüzə verən amansızlıq, rəhmsizlik vardı. Ev sahiblərini qəlbində asıb kəsə-kəsə fikirləşirdi: "İndi sizin də həyatınızı bu gecənin qaranlığı kimi qap-qara edəcəyəm. Hamınızı it kimi gəbərdəcəyəm". Ehtirasdan əllərini elə qüvvətlə bir-birinə sürtdü ki, oymaqları şaqqıldadı.

Ürəyindən gizlti keçdi, öz - özünə təsəlli verdi: "Yaxşı, yaxşı, hələlik faciəli bir şey yoxdur". Ancaq rahat olmadı. Bərk həyəcanlandı. Ömründə ilk dəfə tökəcəyi nahaq qanın istiliyi bütün bədənini bürüdü. Ürəyi yenidən gizildədi. İradəsindən asılı olmayaraq heyvani qorxu sifətində açıqdan-açığa nəzərə çarpdı. Çuxura düşmüş, şişkin gözlərinin altı göm-göy göyərib torbalanmışdı. Dodaqlarının rəngi ağappaq bəyazlaşmış və qupquru qurumuşdu. Burnunun ucu uzanmış, don aparmış kimi ağarmışdı. Boğazı nazikləşmiş, xirtdəyi qabağa çıxmışdı, elə bil onun üzəri ilə bir kürəcik diyirlənirdi. Naməlum şəxs ara vermədən tüpürcəyini udurdu.

Aynabənd zülmət qaranlıq idi. Diqqətlə baxmağa başladı. Sanki baxışların zülməti, pəncərə şüşəsini, evin divarlarını yarıb keçəcəkdi. Qapılardan birini ehmal-ehmal aralayıb içəriyə boylandı. Gözləri alıcı quş kimi otağın küncündəki çarpayıda yuxuya getmiş qızın başı üstündə dərin düşüncələrə dalmış qadını və divarda zəif-zəif gülümsəyən lampanı aldı. Ürəyindəkilər qara şəvə kimi parıldayan qurd gözlərinə tərpəşdi. Bəbəkləri atəş kimi yandı.

Nə qədər asta açılsa da qapının səsinə qadın dərin düşüncələr aləmindən ayrıldı. Dolaşıq əsəb hüceyrələri onun beyninin dumanlı guşələrini dərhal narahat etməyə başladı: kimsə arxasında dayanıb qaranlıqdan ona baxırdı. O, birdən-birə başını geri döndərdi və elə həmin saniyə də gözlərinə şimşək parıldadı, bütün varlığı ilə eşitmə orqanına çevrilmiş adam kimi donub qaldı.

Qarşısındakı şəxsin qaşqabaqlı sükutu, bədxahlıqla ona zillənmiş gözləri qadını qorxutdu. O, əlindəki bıçağı və dəmir lomu bərk-bərk sıxaraq dişlərini azacıq bükmüş, yerində donub qalmışdı. Bütün əzələləri yay kimi yığılmış, başı çiyinləri arasına qısılmış, boynu gərginlikdən qıpqırmızı qızarmışdı. Alacalı gözlərindən od çıxır, sirsifətindən divanəlik yağırdı. Parıltısı qadının gözlərini kəsən ağzı enli və uzun mətbəx bıçağını bir əlində, dəmir lomu isə o biri əlində tutmuşdu. Alçaqdan, demək olar sanki pıçıltı ilə özü-özü ilə danışırdı.

Qadının dodaqlarına çökmüş olan ölü rəngi onun yanaqlarına, alnına, çənəsinə yayıldı...

Qəflətən başına və sol çiyninə dəyən lom zərbələri qadını gicəlləndirdi. Gözlərinə qaranlıq çökdü. Naməlum şəxs əli ilə qadının ağzından cəld yapışıb bıçağı onun döşünə sapladı. Gəlin əllərini havaya qalxızıb nəyi isə qamarlamaq istədi. Ancaq heç nədən yapışa bilmədi. Qatil ikinci, üçüncü zərbəni endirdi. Gəlin sinəsində yandırıcı, göynərtili ağrı hiss etdi. Qulaqları şiddətlə cingildədi. Qıvrıldı. Daxilində gürzələr süründü. Sifətinə ölüm bəyazlığı çökdü. Tez - tez nəfəs almağa başladı. Elə bil otağın havasını çəkmişdilər. Onun gözləri ağarıb, dodaqları yumuldu. Bu dəmdə qadının sifəti iri sual işarəsinə bənzəyirdi.

Bıçaq altında inləyən gəlinin dodaqlarında bircə damcı da olsa qan yox idi. O, ölmək istəmirdi, müqavimət göstərirdi, canını qatilin əlindən çıxartmağa çalışırdı. Ciddi-cəhdinə baxmayaraq, bıçaq zərbələri bütün bədənində at oynadırdı. Ölüm özünün dəhşəti ilə onun qarşısını kəsib vücuduna əl atmışdı, var gücü ilə sıxıb nəfəsini kəsməyə çalışırdı.

Son qüvvəsini toplayan gəlin ölgün baxışlarla, donuq nəzərlərlə qatili süzdü. Qarşısındakı şəxsin qüvvətli düşmən olduğunu başa düşdüyündən əl-ayağı buzladı. Cinayətkarın gözləri kəskin və təsirli idi, cəllad qılıncı kimi parıldayırdı. O, əlindəki bıçağı cəld və amansızlıqla işlədirdi. Onun əlləri qadının qanına bulaşmışdı.

Qadın isə qan içində üzürdü. Ömrünün son dəqiqələrini keçirirdi. Gücü gəldikcə qatilin harası gəldi şilləyirdi, müqavimət göstərirdi. Qatil bir əl ilə qadına güclü yumruq endirdi. O müvazinətini itirib divara tərəf həsləldi.

Nəhayət, yırtıcı vəhşiliklə bir-birinin ardınca endirilən 10 bıçaq zərbəsi qadının əhdini üzdü. Ölüm öz hökmünü verdi-qadın sinəsini tutub döşəmə üzərində ikiqat qaldı. Qızıl qan onun zərif barmaqlarının arxasından su kimi axıb yerdə göləndi. Qatil çılğın bir ehtirasla axırıncı dəfə bıçağı meyitin sinəsinə sapladı, sonra çıxardıb onun paltarına silib götürdü. Atəşin gözlərində bir təntənə oxundu.

Yuxudan hövlnak durmuş balaca qızın evin ortasındakı bu qanlı çarpışmanı görüb ağzı kilidləndi, dodaqları, çənəsi titrədi. Özünü ağlamaqdan güclə saxlayan uşaqların sifəti belə olur. Səsini çıxarda bilmədi. Birdən canına üşütmə düşdü, bədəni qızışıb alovlandı. İstədi dillənə, bacarmadı. Qışqırmağa səy göstərdi. Alınmadı. Çənəsi sözlərinə baxmadı. Dişləri bir-birinə dəyib şaqqıldadı.

Evin ortasında dayanmış naməlum şəxs çox qorxunc görkəm almışdı. Nifrət çanağına çevrilən gözlərinə qan elə sürətlə hücum etmişdi ki, sanki bu saat sıçrayıb ikisi də yerə düşəcəkdi. Qabağa doğru əyilmişdi. Əlindəki lomu irəli uzadıb, ov üstünə atılan pələng kimi hazır durmuşdu-qonşu otaqdan deyəsən hənirti gəlirdi.

Hər şey bir göz qırpımında baş verdi. Sifətinə qəddarlıq həkk olunmuş qatil hiddətlə işıldayan gözlərini dolandırıb dib otaqdan səs-küyə gələn qocanı alaqazladı, əlindəki lomu var gücü ilə onun gicgahına ilişdirdi. Qoca zərbə gələn tərəfə çönmək istəyi ilə qımıldananda qatil bu dəfə onu kəlləsinin ortasından vurdu. Kişi üzüqoylu yerə yıxıldı, bıçaq altında boğazının son tilişkəsi qalan qurbanlıq qoyun təki xırıldadı. Bir neçə saniyə keçməmiş onun ağzından güclü qan şoralandı.

Naməlum şəxs suyun içərisindən kənara atılmış nəhəng balıq kimi döşəmənin üstündə çapalayan, başı xurd-xəşil olub yanı üstə yıxılmış qocaya üçüncü-bu dəfə daha güclü və öldürücü zərbəni endirdi. Zərbə ilə bərabər otağın qaranlığında qulaqbatırıcı bir qışqırtı eşidildi. Bu, qocanın ölümqabağı son fəryadı idi. Otağa gərgin və üzüntülü sakitlik çökdü. Yataqda hələ də özünə gəlməmiş, şoka düşmüş qız döşəmədə anasının və qoca babasının meyitlərinin həndəvərində yaranmış lehmə qanın dəhşətli mənzərəsindən çimçişdi. Sifəti gərildi. Onu yenə də əsməcə tutdu, sonra titrədi. Qatil bir əlində bıçaq, digərində isə lom qənşərində dayanıb heykəl təki soyuq nəzərlərlə ona baxırdı.

Qız onun daşa dönmüş üz ifadəsini görüb diksindi, alnında soyuq tər damcıları parladı. Elə bu zaman anasının qanına bələnmiş bıçağın isti parıltısını çənəsinin altında hiss etdi:

-Dillən - deyib qatil bıçağı onun boğazına sıxdı. - De görüm, anan pulları və qızılları harada gizlədibdir?

Uşağın ürəyinin döyüntüsü çəkic taqqıltısı kimi gicgahlarında əks-səda verdi. Gözlərinə qan çökdü. Qorxudan əlləri titrədi.

Cavab ləngidi və qatilin səsi gərildi. Gözləmək onu hövsələdən çıxartdı. Gözləri hirsindən yanmağa başladı. Baş və şəhadət barmaqlarını dramatik tərzdə bir-birinə sürtüb uşağın üstünə çəmkirdi:

-Hanı pullar?..

Qız cınqırını çıxarmadan gözlərini ona dikib susurdu.

Çənəsinin sağ tərəfindən boğazına işləyən güclü bıçaq zərbəsindən süzülən qan damcılarını görüb rəngi sapsarı saralsa da qız naməlum şəxsə heç nə deyə bilmədi. Əsl həqiqətdə isə deməyə sözü də yox idi-çünki o, anasının saxladığı pulları və qızılları harada gizlətdiyini bilmirdi.

Bundan sonra insanlığa sığmayan, hətta ən laqeyd, biganə adamın qanını belə donduracaq, qəlbini təlatümə gətirəcək bir hadisə baş verdi. Qatil ağzını dağıdıb söyə - söyə özünü dəlicəsinə mətbəxə vurdu. Qızdan söz almaq üçün ancaq faşistlərin edə biləcəyi bir vəhşiliyə əl atdı-qaz plitəsini yandırıb əvvəlcədən hazırladığı dəmir parçasını onun üzərində qızdırdı və çarpayıda uzanmış qızın kürəyinə basdı. Bir, iki, üç, dörd, beş... Sanki paltar ütüləyirdi.

Uşağın çığırtısı ərşə dirəndi. Gözləri hədəqəsindən çıxdı. Hövvüləndi. Qışqıra-qışqıra, hönkür-hönkür göz yaşları axıda-axıda naməlum şəxsdən aman dilədi.

Bu nalələrə əhəmiyyət verməyən qatil isə iti dəmir parçası ilə qızın kürəyini dağlamaqda davam edirdi.

Bundan sonranı qələmə almağa daha gücüm qalmayıb. Nələr keçirdiyimi təsəvvür etmək çətin deyil. "Damarlarımda qanım dondu" sözlərinin mənasını məhz indi tamam-kamal anlayıram. İnsan nə dərəcədə qəddar və amansız olmalıdır ki, belə bir hərəkətə yol verərkən ürəyi, qəlbi daşa dönsün?

Bu insan cəlladının, fələyin əli ilə üç adamın ömür zəmisinə salınmış bu qanlı biçinçinin sifətini daha dəqiq əks etdirmək üçün söz tapa bilmirəm.

Axtardığının yerini qızdan öyrənə bilməyən qatil lomla uşağın təpəsinin ortasına güclü zərbə vurdu. Bu zərbə günahsız bir qızcığazın on illik ömrünə faciəvi və əbədi nöqtə qoydu.

(ardı növbəti sayımızda)